**Xaliq və Hakim olan Allahı adı ilə!**

# Müsəlmanlıq: Mistika, yoxsa gerçək yaşam şərtləri?

Müəllif: **Sərdar Zeynalov** (hüquqşünas)

***"Biz kitabı sənə hər şeyin açıqlayıcısı-izahı və müsəlmanlara doğru yol, rəhmət və müjdə olaraq endirdik."*** (Nəhl surəsi, 89-cu ayə)

Quran praktik həyat şərtləri ilə dolu olan və insanı dünyada ikən son mənzili qazanmağa təhrik edən, mifoloji qurluşu olmayan dindir.

Bu günkü Tövratda Hz. Musanın 3-cü kitabı sayılan "Levililər" bölməsindəki uzun-uzadı əmr və yasaqlardan ibarət olan dini göstərişlərinin, pavelçilərin isə Hz. İsadan əvvəl nazil edilmiş və Hz. İsaya nazil edilən kitaba deyil, mistisizmə söykənən ağıl xaric qaydalarının əvəzinə, Allah Quranda insanın gündəlik fərdi və ictimai həyatını tənzim edən və onda fərdi və ictimai məsuliyyət yaradan, ağırlaşdırıcı olmayan normalar müəyyən etmişdir.

Min beş yüz il əvvəl, kişi və qadın münasibətlərindən başlamış əsirlər və müharibə qənimətlərinə qədər, uşaq tərbiyəsindən yemək yeməyədək, vərəsəlikdən cəza hüququna qədər sivil dünyanın öz hüquq normalarında əks etdiridiyi müasir qaydaları əhatə edən Allahın kitabı Quran, müsəlmanları tərkidünyalığa deyil, buyurulan qaydalar çərçivəsində öz həyatlarını və mühitlərini yaxşılaşdırmağa çağırır.

Quran əxlaq və hüquq qaydalarını bir arada tutaraq insanın həyatı üçün vacib amil olan təhlükəsiz yaşamaq hüququnu real şərtlər çərçivəsində bizə izah edir. Və Allah xüsusi ilə müsəlmanların diqqətinə çatdırır ki, fitnənin yayılmaması üçün iman gətirənlərin birliyinin mütləqliyi vacibdir.[1]

Bundan başqa Allah birgə yaşayışın qaydalarını müəyyənləşdirməklə başqa inanc sahiblərini haqsız yerə sıxışdırmağı və onlara zülm etməyi də biz müsəlmanlara yasaqlamışdır ki, bu da bu gün çağdaş insan hüquqlarının əsas qayəsini təşkil edir.[2]

Dövrümüzdə bir çox insanın əziyyət çəkdiyi alkoqolizim və narkotik üçün yasaq təyin edən Allah, Quranda bunu–sərxoşedicilər-ağılı örtən-sözlüyü ilə ifadə etmiş və insan ağlını və dərkini qapayan bütün uyşdurucu və içkiləri bu sözün təsir qüvvəsi altına salmışdır.

İnsanın azad yaradılmasından dolayı əsirlik və köləliyi qəti surətdə qadağan edən Allah Quranda rəsulu da daxil bütün müsəlmanlara əllərindəki əsirləri ya fidyə müqabilində, ya da fidyəsiz azad etməyi əmr edir.[3]

İctimai birliyin önəmini irəli sürən Quranda Allah, müsəlmanlara cəmiyyətin sağlam şəkilləndirilməsi və yönləndirilməsi üçün yaxşılığa dəvət, pislikdən çəkindirmək əmri verir və bu qaydaya əməl edəcək bir toplumun varlığını vacib sayır.[4]

---

[1] Ənfal surəsi, 73-cü ayə.
[2] Mümtahanə surəsi, 8-ci ayə.
[3] Mühəmməd surəsi,4-ci ayə.
[4] Ali-imran surəsi, 104-cü ayə.

Ədalətli davranışı təqvaya yaxınlıq kimi verən Quran, Allahın müsəlman olanları ədalətə əməl etməkdə necə bir məsuliyyətlə yüklədiyini bizə çatdırır. Başqalarını mühakimə edərkən ədalətin sərhədini qorumağı əmr edir Allah. Ədalətli şahidlər olmağı əmr edir. Və bu zaman kinimizin, qəzəbimizin ağlımızın önünə keçməməsini xəbərdar edir.[5]

Haqsız qətli, zülmü qadağan edir Quran, lakin nəfsi müdafiəni də unutmamışdır.[6]

Elmsiz davranışı və biliksiz mühakiməni müsəlmanlara yasaqlayır Allah. Verilən hər məlumatı araşdırmağı və tədqiq etməyi əmr edir Quran.[7]

Müasir dünya dövlətlərinin çoxunda alq-satqı, fahişəlik, ucuz əmək qüvvəsi olan qadınlarla ədalətli davranmağı buyurur Allah və kişi ilə qadının bir-birindən olduğunu qeyd edərək, Quran bərabər hüquqluluğu təsdiq edir.[8]

Şahidlik məsələsində ata-anaya, özünə qarşı olsa belə, ədaləti bərqərar etməyin zəruriliyi vacib bilinmişdir Quranda.

Allah, varlı və kasıb olmasından asılı olmayraq müsəlmanın hər kəs üçün ədalətli şahidlik etməsini əmr edir.[9] Bu isə demokratiya və insan hüquq və azadlıqları kimi yüksək dəyərlərin təbliğ olunduğu çağdaş dünya dövlətlərinin çoxunda heç də daim riayət edilən bir qayda deyildir.

Yaxşılıqda yarışmağı, mömin və saleh əməldə həmrəyliyi əmr edib, günah işlərdə birgə iştirkaçılıqdan çəkindirən Allahın Kitabı, insanlığın bu gün həsrətində olduğu yüksək rifahın və əminliklə dolu yaşamın hər addımda uyğunlaşdıra biləcəyimiz vacib qaydalarını öyrədir bizə, insan kimi yaşamağı, insan olmağı, Allaha bəndə olmağı öyrədir bizə![10]

***"İnsanları Allaha tərəf dəvət edən, saleh əməl edən və mən müsəlmanlardanam-deyəndən daha yaxşı sözlü kimdir ki?"*** (Fussilət surəsi, 33-cü ayə)

Özünü atesit sayanların, xristianların Quranla bağlı qəbul etmədikləri daha bir məsələ Əhzab surəsinin 37-ci ayəsi-Hz. Mühəmmədin oğulluğu Zeydin arvadı ilə nikahlaması olayıdır. İnsanların evlənə bilməyəcəyi qadınların siyahısnı Nisa surəsi 23-cü ayədə verən Allah, sadalanan qadınlar içərisində övladlıq edilən (uşaqlığa götürülən) şəxslərin boşadığı qadınları daxil etməmişdir. Əhzab surəsinin 4-5-ci ayələrində isə Allah övlad edilmiş şəxsləri oğul olaraq çağırmağı iman gətirənlərə, rəsulu və nəbisi də daxil yasaq edir.

*"Allah insanın içində iki ürək yaratmamışdır və kürəkləri analarmızını kürəyidir deyə, adlandırdığınız qadınları da ananız etməmişdir və övlad etdiklərinizi də sizin oğullarınız etməmişdir. Bu yalnızca sizin ağzınıza aldığınız sözünüzdür, Allah isə gerçəyi söyləyir və O, doğru yola yönəldir. Onları atalarının adı ilə çağırın, bu, Allah yanında daha*

---

[5] Maidə surəsi, 8-ci ayə.
[6] Bəqərə surəsi, 178-ci və İsra surəsi,33-cü ayələr.
[7] İsra surəsi, 36-cı və Hücurat surəsi, 6-cı ayələr.
[8] Nisa surəsi, 3-cü, 25-ci və Bəqərə surəsi,187-ci ayələr.
[9] Nisa surəsi,135-ci ayə.
[10] Bəqərə surəsi, 148-ci , 177-ci və Maidə surəsi, 2-ci ayələr.

*ədalətlidir, əgər atalarını tanımırsınızsa, onlar dində sizin qardaşlarınızdır və sizin yaxınlarınızdır. Yanıldığınız şeylərdə sizə günah yoxdur, qəlbinizin qəsd etdiklərində günah vardır. Allah Ğafur və Rəhimdir!"*

İslamın övladlıqla bağlı qoyduğu qayda olduqca ədalətli və bütün dövrlərin hüquq sistemləri üçün nümunə götürülə biləcək bir qaydadır. Belə ki, günümüzdə övladlığa götürmə ilə bağlı ciddi problemləri olan ailələr var ki, hansı ki övlad etdikləri uşaqların gerçək valideyenlərinin ortaya çıxması ilə çoxsaylı sıxıntılara girrmiş və həmçinin miras paylaşımı məsələsində də bundan irəli gələn həllini tapmamış bir çox hüquqi çözüm gözləyən hallar mövcüddur. Üstəlik də nəzərə alsaq ki, günümüzdə insan alveri qurbanlarının arasında uşaqlar xüsusi yer tuturlar, bu əməl üçün təqsirli şəxslər daha çox bir də övlad götürmə məsələsindən yararlanırlar. Odur ki, əməlin/əməlsizliyin günah və ya caizliyini bizə təqdim etməzdən əvvəl, həmin əməlin mahiyyətini düşünməyə bizi vadar edən izinverici və ya qadağanedici hökmü ortaya qoymuş Allahın nizamında əksiklik olmadığını anlamaq zorundayıq. Çünki problem Quranın buyruqlarında deyil, bizdədir.

Müsəlmanlıq yuxarıda da izah etdiklərimdən göründüyü kimi, gerçək yaşama dayanan bir sistemdir, fitrətə yönəlik inancdır, mistika və ya fəlsəfəçilik deyildir.

Allahın nizam və ölçü içərisində xəlq etdiyi dünyalar üçün yol göstərən və doğruya istiqamətləndirən bir rəsulun və kitabın göndərilməsi mütləq şərtlərindəndir. İnsanlıq səfalətdən və fitnə girdabından çıxmaq üçün ona doğru yol göstərəcək və ona insanlıq mahiyyətini açıqlayacaq birinə möhtacdır. Hər bir insan özü ilə etirafda bir yaradıcının olduğunu etiraf edir və bu səbəbdən də hər kəs üçün Allah mütləq şəkildə rədd ediləcək varlıq deyildir.

***"İnsan özü-özünə şahiddir, hətta üzrlərini ortaya qoysa belə!"*** (Qiyamət surəsi,14-15-ci ayələr)